# "Heydər Əliyev və multikulturalizm" mövzusu dəyirmi masada müzakirə olundu



Bu günlərdə Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda "Heydər Əliyev və multikulturalizm" adlı dəyirmi masa keçirildi. Tədbirin təşkilatçısı və aparıcısı, AYB-də Multikulturalizm məsələləri üzrə məsul şəxs, şairə Xatirə Fərəcli tədbiri açaraq qonaqları salamladı. Daha sonra Azərbaycanın azadlığı və bütövlüyü uğrunda canlarından keçən Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

X.Fərəcli tədbirin məğzindən danışaraq qeyd etdi ki, "belə bir təşəbbüs Ulu öndər Heydər Əliyev şəxsiyyətinə, mənəvi irsinə, əmək və fəaliyyətinə, o cümlədən multikulturalizm sahəsinə verdiyi töhfələrə diqqətin nümayişidir. AYB-də fəaliyyət göstərən müxtəlif şöbələr, seksiyalar kimi, Multikulturalizm bölməsi də bir o qədər əhəmiyyətli və vacibdir".

X.Fərəcli, yeni təyinatına, belə bir məsuliyyətli işin məhz ona həvalə olunmasına görə AYB-nin sədri Anar müəllimə öz dərin təşəkkürünü bildirməyi də unutmadı və göstərilən etimadı doğruldacağına söz verdi.

Heydər Əliyevin doğum günü ərəfəsində belə bir tədbirin gerçəkləşməsinin Ulu öndərin əziz xatirəsinə olan hörmətin və sevginin təzahürü olduğunu vurğulayan Xatirə Fərəcli, daha sonra sözü tədbir iştirakçılarına verdi.

Tədbirdə iştirak edən AYB-nin katibləri İlqar Fəhmi və Səlim Babullaoğlu, AYB sədrinin baş müşaviri Rauf Aslanov, Kadrlar şöbəsinin rəisi Arifə Əliyeva, tənqidçi-ədəbiyyatşünas Əsəd Cahangir, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, "Simurq" Azərbaycan Mədəniyyət Assosasiyasının Prezidenti, Azərbaycanda kulturologiya elminin yaradıcısı Fuad Məmmədov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri, jurnalist Yadigar Məmmədli, Azərbaycan Milli Konservatoriyasında "Humanitar fənnlər" kafedrasının müdiri Firudin Qurbansoy; AMEA-nın Folklor İnstitutunun əməkdaşları Vəfa Saleh, Cəmilə Novruzova və Asiya Mirzəyeva, "Dünya Axısxa Türkləri" Birliyinin Azərbaycan təmsilçisi, Azərbaycanda yaşayan Axısxa türklərinin "Vətən" İB-nin sədri Xalid Xəlilov, İsrail-Azərbaycan "Şahdağ" təşkilatının Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri İsmayıl Zalov, Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili, Azərbaycan Bahai İcmasının üzvü Ramazan Əsgərli və digər qonaqlar Heydər Əliyevin azərbaycançılıq ideyasının təbliğində, yayılmasında gördüyü əhəmiyyətli işlərdən söz açdılar. Qeyd olundu ki, ölkəmizdə multikulturalizm ənənlərinin formalaşması və bu modelin yaradılmasında Heydər Əliyevin xidməti danılmazdır və H.Əliyev azərbaycançılığın daxilində təkcə çoxmillətli, müxtəlif dinli Azərbaycan əhalisini deyil, həm də xaricdə yaşayan azərbaycanlıları görürdü. Bu gün Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Qeyd olundu ki, multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edən, fəaliyyətinin bütün sahələrində olduğu kimi, bu sahədə də, təkcə Azərbaycana deyil, dünya siyasətinə də öz töhfələrini verən Heydər Əliyevin multikulturalizmin Azərbaycan modeli digər dövlətlər üçün zaman-zaman örnək rolunu oynayacaq.

Çəkilən şəkillər həmin günün xoş xatirəsitək tarixin yaddaşına həkk olundu.

*Aygün HACIYEVA*

